**UOT: 78.**
**ORCID: 0009-0001-3018-9436**
**https://doi.org/10.52094/QSLI8754**

**Tasurə Hüseynova Şahin qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**tasura.huseynova@hotmail.com**

# RƏHİLƏ HƏSƏNOVANIN FORTEPİANO YARADICILIĞINDA "MONAD" SONATASININ TƏHLİLİNƏ DAİR

**Xülasə:** "Rəhilə Həsnovanın fortepiano yaradıcılığında "Monad" sonatasının təhlilinə dair" məqaləsində R.Həsnovanın yaradıcılığı araşdırılır. Bəstəkarın "Monad" sonatası geniş planda tədqiq olunur. "Monad" sözünün semantikası açıqlanır və onun fəlsəfi mahiyyətinə aydınlıq gətirilir. Texniki mürəkkəbliyi ilə seçilən R.Həsənovanın musiqisi aleatorika, minimalizm kontekstində araşdırılır.

**Açar sözlər:** minimalizm, sintez, xaos, travma, fortepiano, yenilik

Çağdaş akademik musiqi dünyasında özünəməxsus rolu olan bəstəkar Rəhilə Həsənova öz musiqi dünyası ilə Şərq və Qərb mədəniyyətləri arasında "körpü qurmaq" kimi unikal bir üslub formalaşdırmağa nail olmuşdur. Belə ki, R.Həsənova Şərqi təmsil edən doğma Azərbaycan mədəniyyətini Qərbin çağdaş akademik musiqi ənənələri ilə sintez edərək müxtəlif janrlarda yazılmış orijinal musiqi əsərləri yaratmışdır. R.Həsənovanın musiqisi bu ənənəyə dərin bağlılığı ilə seçilir və qərb bəstəkarlıq texnikaları ilə mürəkkəb, eyni zamanda təbii vəhdət təşkil edir. O, musiqi təhsilində Şostakoviçin bəstəkarlıq yanaşmalarından təsirlənərək bu texnikaları da mənimsəmişdir. Məhz bu yansıma nəticəsində də R.Həsənova dövrünün yenilikçi bəstəkarlarından birinə çevrilmişdir. O, vətənində ilk dəfə etno-minimalist istiqamətli əsərlər yaratmış və təsadüfilik prinsipinə əsaslanan aleatorikanı musiqisinə tətbiq etmişdir. Musiqişünas Zümrüd Dadaşzadə onun yaradıcılığı haqqında belə yazır: "R.Həsənovanın əsərləri hər biri müstəqil bir mikrokosmos kimi onun kompozisiyalarının makroməkanına mükəmməl şəkildə daxil olan unikal intonasiyalarla zəngindir." Polyak bəstəkarı, pianoçusu və musiqişünası Kşiştof Meyer isə R.Həsənovanın yaradıcılığını belə xarakterizə edir: "R.Həsənovanın musiqisi fenomenaldır; o, böyük ustaddır" [1].

R.Həsənova muğam və improvizasiya təcrübəsinə dərin maraq göstərirdi, buna görə də onun minimalizm üsulundan istifadə edərək əsərlər yaratması təsadüfi deyildi. Minimalizm vasitəsilə o, şərq musiqisinin ornamentlərini və qərbin müasir musiqisinin harmonik-ritmik strukturlarını sintez edərək, hər iki ənənənin estetik xüsusiyyətlərini qoruyan özünəməxsus musiqi dili formalaşdırmışdır. R.Həsənova özü vurğulayır ki, onun yaradıcılığında minimalizm anlayışı XX əsrin son onilliklərindəki Amerika bəstəkarlarına məxsus kompozisiya üsulu ilə eyniləşdirilə bilməz [Əsgərova, 2009, 151]. Onun əsərlərində minimalizm tamamilə başqa mahiyyətə malikdir: bu, gələcək əsərin əsasını təşkil edən “toxumu” – ilkin materialı səmərəli şəkildə istifadə edən, eyni zamanda güclü emosional təsir effekti yaradan bir kompozisiya yanaşmasıdır. Bəstəkar əvvəlcədən hazırladığı səs materialı və ya “zəngin enerjiyə malik səs modelinu – kodu” sonrakı musiqi konstruksiyası üçün bütün inkişaf potensialını özündə cəmləyən minimum vasitəyə çevirir. Bu səbəbdən onun əsərlərindəki materialın məhdudlaşması ilə yaradılan modusun inkişafı amerikan minimalizminin qanunlarına tabe olmur. Musiqi materialının inkişafı daxili səs diapazonunun genişlənməsi, ritmik parçalanma və dinamik ifadəliliyin gücləndirilməsi prinsipləri üzərində qurulur. Yaradıcılığında fortepiano, vokal, orkestr əsərlərinə, kamera musiqisinə və s. yer verən bəstəkar R.Həsənovanın üslubu zamanla inkişaf etmiş və genişlənmişdir.

Bir bəstəkar kimi öz fərdi üslubunu yaradan R.Həsənovanın yaradıcılığı üçün minimalizm, sufi təsəvvüf musiqisindən qaynaqlanan mərasim estetikası, yeni ifadə vasitələri – aleatorika, sonoristika və s. kimi müasir kompozisiya texnikaları xasdır. O, fortepiano üçün “Çeşmə” silsiləsi, “Alla Meyxana”, Sonata (“Monad”) kompozisiyaları ilə yanaşı, müxtəlif tərkibli ansamblılar üçün milli adları özündə cəmləşdirən, tarixən informasiya daşıyıcısı olan milli xalça naxışlarını musiqi dilində təcəssüm etdirən “Pirəbədil” kompozisiyası, “Dərviş”, “Səma”, 20 yanvar Şəhidlərinə həsr olunmuş “Mərsiyə”, “Qavaldaş”, “Xəzri-Gilavar” kimi əsərlərin müəllifi kimi tanınır [İsmayılova, 2022, 65]. Ümumiyyətlə, atonallıq və harmoniyanın dissonanslığının dominanantlıq təşkil etməsi, aleatorika kompozisiya prinsipindən, klaster akkordlar və səs tembrinin müxtəlifliyindən istifadə olunması onun əsərlərinin orijinallığını təmin edən elementlər kimi xarakterizə oluna bilər. Unutmayaq ki, R.Həsənova həm də mahir fortepiano ifaçısı idi, onun fortepiano əsərləri də rəngarəng səs koloriti və texniki elementlərlə zəngindir. Azərbaycan muğamı və xalq musiqisi ilə qərb avanqard musiqi dilinin vəhdəti, onun fortepiano yaradıcılığında əhəmiyyətli yer tutur. Skerzo,

çakonne, "Çeşmə", "Monad" sonata və s. əsərlər bəstəkarın fortepiano yaradıcılığının parlaq nümunələridir. R.Həsənovanın yeni musiqinin əsas axınına uyğun olaraq təqdim etdiyi əsərlərin orijinallığının semantikasını, "üslubun fərdi (milli) keyfiyyətlərini gizlədən universal texnikalar" [Воробьев, 2018, 95] kimi xarakterizə etmək mümkündür.

Xüsusilə "Monad" fortepiano sonatası, bəstəkarın həyatında və eyni zamanda yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir. Tənqidçilər bu əsəri "ziddiyyətli", "vəhşi", "sərhədləri aşmağa çalışan" və "həm melodik, həm də destruktiv gücə malik" bir kompozisiya kimi xarakterizə edirlər. Bu səbəbdən də onun interpretasiyası, pianoçular üçün həm texniki, həm də emosional baxımdan çətin gəlir. Öz əsərlərini məharətlə ifa edən R.Həsənovanın ən təsirli əsərlərdən biri "Monad" əsəridir. 1993-cü ildə yazılmış bu əsər Sovet qoşunlarının 1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecə Azərbaycana daxil olmaqlarına birbaşa cavab olaraq yaranmış kompozisiyadır. Dəhşətli hadisələr zamanı Rəhilə xanımın vahiməli bir səhnənin şahidi olması səbəbindən də əsər məhz dərin travma yaradan hadisənin, xaosun və kədərin musiqi vasitəsilə əks olunması kimi qavranılır.

"Monad" anlayışının izahı fəlsəfi və metafizik köklərə dayanır. Alman riyaziyyatçısı, filosofu və hüquqşünası Qotfird Leybnitsin "Monadologiyası"nda monadlar bölünməz, müstəqil və bütün varlığın əsasını təşkil edən bütöv vahid kimi təsvir edilir. R.Həsənova isə bu ideyanı musiqidə həm struktur, həm də emosional məzmun baxımından inkişaf etdirir. Əsər klassik sonata formasına əsaslansa da, sərbəst və intuitiv inkişaf xəttinə malik olması ilə diqqəti cəlb edir. Belə ki, yeganə mövzunun inkişafı qəfil transformasiyalara məruz qalır – bəstəkar bir anda lirika və nostalji dolu akkordlardan xaotik və sərt fortissimo passajlarına keçir. Bu dəyişikliklər, sanki məhv olan və yenidən doğulan bir dünyanın səs izləri kimi təqdim olunur. "Monad" sonatasının mövzusunun lakonik özəkdən yaranan, "Şur" məqamına əsaslanan yığcam diapazonlu gərgin və ziddiyyətli xarakteri ilə sanki bütov bir enerjini özündə cəmləyir. Melodik və ritmik xətt qeyri-sabitdir, tonallıq isə açıq şəkildə müəyyən edilmir, bu da xaos və qeyri-müəyyənlik hissi yaradır. Yəni sonatanın əvvəlində narrativ səciyyəli, $x_5$-dan böyük olmayan diapazon çərçivəsindəki melodiyanın ritmində otuzikilik notlarla verilən şərti ölçülərin davamlı dəyişməsi (kvintol, sekstol, oktol, detsimol) məhz real şəkildə yaşanan anarxiya sistemini ifadə edir. Z.Dadaşzadə R.Həsənovanın yaradıcılığını "Bəstəkar yaradıcılığında milli problematika" istiqamətində xarakterizə etdiyi məqaləsində "Monad" sonatası haqqında belə yazır: "Məhz ilkin verilmiş metr-

ritmindəki kəskin dəyişiklik inkişafın yeni mərhələsinə təkan verir" (Z.Ахундова-Дадашзаде, 2020, 15). Gözlənilmədən transformasiyaya uğrayan mövzu və formanın daxilində aleatorik elementlərdən istifadə edən bəstəkar xaosu və tarixi faciəvi hadisələrin qeyri-müəyyənliyini əks etdirir. Əsərin ən güclü emosional katarsis anı – dinamikanın maksimal səviyyəyə çatdığı və pianoda həm texniki, həm də emosional baxımdan ekstremal tələbkarlıq yaradan bölməsidir. Burada həm geniş klaster akkordlardan, həm də yüksək registrdə dissonanslı intervallardan istifadə olunub. Sonatanın sonu qeyri-adi və açıq qalmış halda, tamamlanmayan bir effekt yaradır, yəni burada melodik motivlər sanki çözülərək yox olur, bu da dərin bir psixoloji təsirə səbəb olur. Fortissimo və pianissimo çalarlarının gözlənilmədən dəyişməsi əsərə gərginlik qatır, pedallardan davamlı şəkildə istifadə olunması, əsərin əks-sədasını artırmaqla yanaşı, bəzi melodik motivləri "uzaqlaşdırır" və səsin dağılmasına imkan verir. Bu da, musiqinin "xəyali" bir hissə çevrilməsinə səbəb olur.

Sonatanın əsas məqamlarından biri də notayazılma prosesidir. Bəstəkar texniki imkanları nəzərə alaraq öz yaratdığı yazı strukturlarından istifadə edir. Əsərdə xanə xətlərinin olmaması ifaçıya müəyyən sərbəstik verir. Sonatada kiçik parçaların üzərində "ca" yazılması həmin parçanın təxmini ifasını bildirir. Həmçinin musiqi parçalarının dəfələrlə təkrarlanmasını bildirən "x's" işarəsi maraq yaradır. Eyni zamanda sonatada not yazılışında da müəyyən dəyişikliklərə rast gələ bilərik. Tədricən tempin azalıb artması not birləşmələrində öz əksini tapır, dalğavari not birləşməsi isə improvizə xarakteri daşıyır. "Monad" sonatasının notlarında R.Həsənovanın qeydləri mövcud olduğu üçün ifaçı əsərin icrasında müəyyən kömək almaqla, bəstəkarın verdiyi istiqaməti saxlamağa müvəffəq olur. R.Həsənova öz "Monad" sonatasının semantikasını belə xarakterizə edir: "Monad – vahidlik və bir rəqəminin təcəssümüdür; o, böyük və kiçik, müsbət və mənfi ədədləri, nano- və mega-ölçüləri, Keçmişi və Gələcəyi özündə birləşdirir... Kainatın və onun hüdudlarından kənar bütün müxtəlifliklər Monadın çoxluğundan yaranır. Vahidlikdə müxtəliflik, bölünməz tamlıq – məhz Monadın mahiyyətidir. Monad qanunu hər yerdə mövcuddur. Bir anlıq dayanıb, bütün mövcudatın Tək olan üzərində qurulduğunu, bu mürəkkəb və bəlkə də faciəvi prosesin dərinliyini təsəvvür etməyə çalışın... və siz dəyişməyə başlayacaqsınız" [3].

Amerikalı pianoçu, bəstəkar və tənqidçi Ced Distlerin sözlərinə görə isə, bu sonata "ciddiyyət və dərinlik daşıyan" bir əsərdir. O qeyd edir ki, "bəstəkar səs tembrinə və ton seçiminə böyük diqqət və incəliklə yanaşır". "Monad"-ın Nyu-Yorkda premyerasını həyata keçirən pianoçu Ju-Pinq Sonq bu musiqi

haqqında belə danışır: "Bu musiqi sərt, emosional və Azərbaycan mədəniyyətinin qəmli nəğmələri və harmoniyaları ilə doludur. Qərb notasiya sistemi ilə yazılsa da, musiqi sanki not başlıqlarının, ritmlərin və strukturların sərhədlərini aşmaq, sürətlə uzaqlara qaçmaq və fəryad etmək istəyir. Pianoçunu da özü ilə aparır – istəsə də, istəməsə də" [2]. Piano ifaçısı Ju-Pinq Sonq bu günün müasir musiqisinin **aparıcı təbliğatçılarından** biri kimi **beynəlxalq miqyasda tanınır.** Onun **ənənəvi konsert çərçivələrini aşan, rəngarəng və yenilikçi səhnə çıxışları** tənqidçilər tərəfindən yüksək qiymətləndirilmiş, Boston Globe tərəfindən o, **"qeyri-adi istedada malik bir pianoçu"** kimi xarakterizə olunmuşdur.

R.Həsənovanın yaradıcılığı çoxşaxəli olduğundan, o, fortepiano üçün yazdığı əsərlərlə yanaşı, digər alətlər üçün yazdığı əsərlərində də sonata janrına müraciət etmişdir. Məsələn, bəstəkarın violin və fortepiano üçün birhissəli sonatasında muğam inkişaf formasına bənzər dörd inkişaf mərhələsi mövcuddur. Bəstəkar mövzunu mahiyyət etibarı ilə improvizə prinsipi ilə təqdim edir, bu ifadəni yaxından dəstəkləyən daxili qüvvəni üzə çıxarır və onu böyük ustalıqla hərəkətlilik prinsipi ilə birləşdirir. R.Həsənova solo sonatalarında alətlərin imkanlarını tam şəkildə aça bilir, xronometr, temp dəyişmələri və emosional dalğalanmalar bu orijinal cizgilərin çatdırılmasında önəmli rol oynayır. Bu əsərlərdə minimalizm prinsipi də tətbiq olunur: kiçik səslərin çoxalması və əlavə edilməsi nəticəsində güclü klasterlər formalaşır.

R.Həsənovanın musiqisi dünyanın müxtəlif ölkələrində – Rusiya, Ukrayna, Belarus, İsveçrə, İtaliya, Belçika və Avstriyada təşkil olunan beynəlxalq musiqi tədbirlərində və konsertlərdə səsləndirilmişdir. Niderlandda onun əsərləri iki dəfə "Nieuw Ensemble" tərəfindən ifa üçün sifariş edilmişdir. R. Həsənovanın fərdi yaradıcılıq konsertləri Azərbaycanda, Polşada, Almaniyada, Böyük Britaniyada və ABŞ-da gerçəkləşdirilmişdir. R.Həsənovanın fortepiano yaradıcılığı isə Azərbaycan musiqisinin özünəməxsus xüsusiyyətlərini yaşadan və çağdaş musiqinin texniki və fəlsəfi mühitini formalaşdıran bir sənət nümunəsidir. Onun əsərləri insanın daxili mübarizəsini, tarixini və mədəniyyətini sərbəst bir şəkildə tərcümə edərək, dinləyiciləri yeni düşüncələrə və hisslərə qərq edir. Bu mənada Rəhilə Həsənovanın digər kompozisiyaları kimi, fortepiano üçün yazılmış əsərləri də özünəməxsusluğu, dərinliyi, müasir musiqi repertuarında qiymətli olması və unikallığı ilə seçilir və sevilir.

## Ədəbiyyat siyahısı

*Azərbaycan dilində*

1. Əsgərova S.H.Əsgərova "Rəhilə Teymur Həsənovanın yaradıcılıq çeşməsi" Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunmuşdur, 2009
2. İsmayılova G. Rəhilə Həsənovanın pedaqoji fəaliyyətinə dair. ADMİU. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri"nə həsr edilmiş XXI Beynəlxalq konfransın materialları. 2022

*Rus dilində*

1. Ахундова-Дадашзаде З. От минимализма к архаике (к проблеме интерпретации этноспецифических концептов в творчестве композитора Рахили Гасановой). Музыкальное искусство Евразии. Традиции м современность, 2020
2. Воробьев И.С. К вопросу об адаптации в современном композиторском творчестве // Южно-Российский музыкальный альманах, 2018, №4. – С. 65-70

*İnternet resurslar*

1. Rahilia Hasanova https://www.aseatatthepiano.com/composers/rahilia-hasanova
2. Ju Ping Song program https://wpu.cfa.arizona.edu/wp-content/uploads/sites/4/2019/09/25131306/ProgramJuPingSong2019.pdf
3. Ju Ping Song concert booklet, monad https://starkland.org/wp-content/uploads/2024/09/Ju-Ping-Song-Monad-Booklet-02.pdf

**Tasura Huseynova Shahin gizi**

**On the Analysis of Rahila Hasanova's "Monad" Sonata in Piano Composition**

**Summary:** In Tasura Huseynova's article "On the analysis of Rahilia Hasanova's "Monad" sonata in piano composition" the composer's work is explored. The "Monad" sonata is studied in a broad context. The semantics of the word "Monad" are revealed, and its philosophical essence is clarified. R.Hasanova's music, distinguished by technical complexity, is analyzed within the context of aleatoricism and minimalism.

**Key words:** minimalism, synthesis, chaos, trauma, piano, innovation

**Тасура Гусейнова Шахин гызы**

## Об анализе сонаты «Monad» Рахилы Гасановой в фортепианной композиции

**Резюме:** В статье «Об анализе сонаты «Monad» Рахилы Гасановой в фортепианной композиции» исследуется творчество Р.Гасановой. Соната «Monad» рассматривается в широком контексте. Раскрывается семантика слова «Monad» и проясняется его философская сущность. Музыка Р.Гасановой, отличающаяся технической сложностью, исследуется в контексте алеаторики и минимализма.

**Ключевые слова:** минимализм, синтез, хаос, травма, фортепиано, новаторство

*Məqalənin redaksiyaya daxilolma tarixi: 04.10.2025*

*Rəyçilər: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova; Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılova*